# Qələbəyə gedən yol

Dördgünlük aprel müharibəsi cəbhə xəttində yeni hərbi, siyasi və diplomatik situasiya formalaşdırdı. Nizamlama prosesinə davamlı olaraq müxtəlif təxribatlarla maneə yaradan Ermənistanın növbəti avantürasının qarşısının Silahlı Qüvvələrimiz tərəfindən qətiyyətlə alınması, bunun ardınca isə təmas xətti boyunca ordumuzun irəliləməsi hərbi yönümdə təşəbbüsün birmənalı olaraq Azərbaycanın əlinə keçdiyini şərtləndirdi. Qısa çəkən hərbi əməliyyatlar ordumuzun üstünlüyünü göstərməklə yanaşı, Azərbaycanın son hədəfə - tam qələbəyə çatmaq üçün bütün imkanlara sahib olduğunu da nümayiş etdirdi.








Təsadüfi deyil ki, vasitəçi dövlətlər və beynəlxalq təşkilatlar hərbi gərginliyi aradan qaldırmaq üçün Azərbaycana israrlı xahişlər etdilər, təkliflər irəli sürdülər, yüksək səviyyəli təmsilçiləri ölkəmizə səfərə gəldilər. Rəsmi Bakı dərhal atəşkəs elan etdi və sülh prosesinə sadiqliyinə bir daha əməl edərək ordumuzun irəliləməsini dayandırdı. Cəbhə xəttindəki yeni situasiya münaqişə tərəflərinin malik olduğu hərbi potensialla yanaşı, həm də onların sülh danışıqlarına münasibətini də göstərdi. Beynəlxalq miqyasda bir daha sübut olundu ki, Ermənistan nizamlama prosesinin normal məcrada gedişinə maneə yaratmaqda israrlıdır, Azərbaycan isə Qarabağdakı hərbi status-kvonu öz xeyrinə dəyişdirmək imkanında olsa da, problemin sülh yolu ilə həllinə tərəfdardır.

İki il öncəki bu mühüm hərbi zəfər xalqımızın qürur mənbəyidir. Bu münasibətlə ölkə miqyasında çoxsaylı tədbirlər keçirilir, aprel döyüşlərinin nəticələri müzakirəyə çıxarılır. Bu tədbirlərin növbətisini Müdafiə Nazirliyi Nəsimi Rayon İcra Hakimiyyəti ilə birgə təşkil etdi.

2016-cı ilin aprel döyüşlərinin növbəti ildönümü münasibəti ilə Nizami Kino Mərkəzində "Qələbəyə gedən yol" adlı hərbi vətənpərvərlik tədbiri keçirilmişdir. Tədbirdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və C.Naxçıvanski adına Hərbi Liseyin kursantları, rayon məktəblilərinin yuxarı sinif şagirdləri, Qarabağ müharibəsi veteranları, əlilləri və Şəhid Ailələri İctimai Birliyinin Nəsimi rayon şöbəsinin üzvləri, rayon veteranlar cəmiyyətinin üzvləri və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Tədbir Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin hərbi orkestri tərəfindən Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlandı. Sonra torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının, o cümlədən aprel döyüşləri şəhidlərinin ruhu bir dəqiqəlik sükutla yad edildi. Daha sonra Azərbaycan Silahlı Qüvvələrinin güc və rəşadətindən bəhs edən videoçarxın nümayişi tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.




Müdafiə Nazirliyinin Şəxsi heyət Baş İdarəsinin Mənəvi psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi general-mayor Rasim Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Vətənimizin torpaqlarının müdafiəsi uğrunda göstərdiyi qəhrəmanlıq və şücaətlərindən danışdı. Qeyd etdi ki, aprel döyüşlərində də Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızın müdafiəsi üçün qəhrəmanlıqlar göstərmişlər. Azərbaycan Ordusunun gücü və qüdrətini xüsusi qeyd edən natiq tezliklə işğal altında olan torpaqlarımızın qaytarılacağına əminliyini bildirdi.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov çıxış edərək bildirdi ki, 2016-cı ilin aprel döyüşlərinin baş verdiyi hər bir gün hamımız üçün böyük bir sınaq oldu. Həmin günlər Milli Ordumuzun əsgərləri doğma Vətən torpaqlarının hər bir qarışının bizlər üçün nə qədər əziz olduğunu öz canları və qanları hesabına bir daha sübut etdilər. Qeyd etdi ki, aprel döyüşlərində əldə etdiyimiz qələbəmizdə vətənpərvərlik tərbiyəsinin əvəzsiz rolu danılmazdır. Aprel döyüşlərində qazanılmış qələbədə gənclərin əsl vətənpərvərlik nümayiş etdirməsi, yüksək əhvali-ruhiyyə sərgiləməsi Ali Baş Komandanın həyata keçirdiyi uğurlu gənclər siyasətinin bariz nümunəsidir. 2016-cı ilin aprel döyüşləri zamanı Milli Ordumuzun hərbçiləri şəhidlik zirvəsinə yüksələrək öz canları və qanları hesabına hər birimizə çoxdan gözlədiyimiz qələbənin yollarını göstərdilər.

2016-cı ilin aprelində Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş dördgünlük müharibə zamanı Azərbaycan Milli Ordusu Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də Seysulan məntəqəsini Füzuli rayonu istiqamətində yerləşən Lələtəpə adlandırılan yüksəkliyi, Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etdi, qısa müddətdə strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələrini Ermənistan Silahlı Qüvvələrindən tam azad etdi. Bildirdi ki, tezliklə Ali Baş Komandanın rəhbərliyi altında üçrəngli bayrağımız doğma Qarabağımızın hər bir guşəsində dalğalanacaqdır.

Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşımızda dayanan əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin daimi olaraq artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsidir. Ötən illərdə ordumuzun döyüş qabiliyyətinin artırılması üçün bu sahədə qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirilib. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırılıb. Bu mənada inkişafın Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri də ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətini artırmasıdır.

2 il öncə Silahlı Qüvvələrimiz Ermənistanın cəbhə bölgəsindəki ərazi üstünlüyü barədə qənaətləri alt-üst edərək göstərdi ki, artıq Qarabağda bir üstünlük var, o da indi daha Azərbaycana məxsusdur. Rəsmi Bakının bu inkarolunmaz hərbi arqumente diplomatik hücum sahəsində uğur faktları əlavə etməsi isə Ermənistanın məğlubiyyətlər silsiləsinin davamlılığını təmin edib.

Tədbirdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Nəsimi Rayon İcra Hakimiyyəti ilə birgə təşkilatçılığı ilə hazırlanmış "Azərbaycan əsgəri" mahnısı və klipi ilk dəfə olaraq tamaşaçılara təqdim olundu. Sözləri Zahid Əzizə, musiqisi Elvin Orucova məxsus, əməkdar artist Ehtiram Hüseynov, İlkin Əhmədov və Tural Salmanov tərəfindən canlı ifa olunan "Azərbaycan əsgəri" mahnısı tədbir iştirakçılarının böyük coşqusuna səbəb oldu.

Sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən "Azərbaycan əsgəri" mahnısının yaradıcı heyəti qiymətli hədiyyələrlə mükafatlandırıldı.

***Səbinə MƏMMƏDOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.-1 aprel.- S.8.